VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 175-193
Telif Haqqı©Varlıq Dergisi

İran Türkçülüyünün Fikir Öncülərindən Biri Prof. Dr. Məhəmməd Tağı Zehtabi

• Yaşar (Ali) PURALİ [1]

Xülasə: Bu məqalə professor Məhəmmədtağı Zehtabi'nin İran'da Türkçülük düşüncəsinin inkişafındakı yerini onun həyat yolu, ana dili maarifçiliyi, tarixçilik fəaliyyəti və müxtəlif Türk topluluqları ilə mədəni əlaqələri əsasında araşdırır. Tədqiqat bioqrafik yazıların, biblioqrafik araşdırmaların, kitab təqdimatlarının və xatirələrin tematik müqayisəsinə əsaslanır. Məqalənin əsas tezisi budur ki, Zehtabi İran Azərbaycanı'nda yetişsə də, dil, tarix və milli kimlik haqqında düşüncəsini İran Türkləri miqyasında qurmuşdur. Ana dilinin öyrənilməsi üçün hazırladığı əsərlər, İran Türklərinin keçmişini ayrıca tədqiqat mövzusuna çevirməsi, Qaşqay, Xələc, Türkmən və Şahsevən ziyalıları ilə əlaqələri bu geniş düşüncə dairəsini göstərir. Müxtəlif müəlliflərin onun irsi haqqında qiymətləndirmələri dil, tarixi hafizə və mədəni həmrəylik arasındakı əlaqə baxımından təhlil olunur. "İran Türkçülüyünün fikir öncüllərindən biri" ifadəsi onun bu istiqamətləri birləşdirən maarifçi və yönverici rolunun qiymətləndirilməsidir. "İran Türklərinin Əski Tarixi"ndəki təxminən yeddi minillik keçmiş haqqında tarixi yanaşma müəllifin milli tarix anlayışı kimi nəzərdən keçirilir; bu tarixi yanaşmanın düşüncə tarixindəki əhəmiyyəti ilə tarixi doğruluğu fərqləndirilir. Zehtabi'nin irsi İran Türklərinin öz dilində öz keçmişi və kimliyi haqqında düşünməsi üçün yaratdığı imkanlar baxımından qiymətləndirilir.

Açar sözlər: Məhəmmədtağı Zehtabi, İran'da Türkçülük, İran Türkləri, İran Azərbaycanı, ana dili, tarixi hafizə; milli özünüdərk; maarifçilik.

---

1 Kanada'da yayımlanan *TURUK* Akademik və Araşdırma Dərgisi ilə *Azerbaijan Post*'un naşiri, jurnalist ve baş redactor.
e-poçt: alipoorali@turuk.org; ORCID: 0009-0001-7573-854X.

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 175-193
Telif Haqqı©Varlıq Dergisi

İran Türkçülüğünün Fikir Öncülerinden Biri Prof. Dr. Muhammed Taki Zehtabi

• **Yaşar (Ali) PURALİ** [1]

Özet: Bu makale, Prof. Muhammed Taki Zehtabi'nin İran'da Türkçülük düşüncesinin gelişimindeki yerini; hayatı, ana dili konusundaki eğitim ve aydınlatma faaliyetleri, tarihçilik çalışmaları ve farklı Türk topluluklarıyla kurduğu kültürel ilişkiler temelinde incelemektedir. Araştırma; biyografik yazıların, bibliyografik çalışmaların, kitap tanıtımlarının ve hatıraların tematik karşılaştırılmasına dayanmaktadır. Makalenin temel tezi, Zehtabi'nin İran Azerbaycanı'nda yetişmiş olmakla birlikte dil, tarih ve millî kimlik konusundaki düşüncelerini İran Türkleri ölçeğinde şekillendirmiş olduğudur. Ana dilinin öğrenilmesi amacıyla hazırladığı eserler, İran Türklerinin geçmişini müstakil bir araştırma konusu hâline getirmesi, Kaşkay, Halaç, Türkmen ve Şahseven aydınlarıyla kurduğu ilişkiler, onun geniş düşünce ufkunu ortaya koymaktadır. Farklı yazarların Zehtabi'nin mirasına ilişkin değerlendirmeleri; dil, tarihî hafıza ve kültürel dayanışma arasındaki ilişki açısından ele alınmaktadır. "İran Türkçülüğünün fikir öncülerinden biri" nitelemesi, onun bu alanları bir araya getiren aydınlatıcı ve yönlendirici rolüne ilişkin bir değerlendirmedir. *İran Türklerinin Eski Tarihi* adlı eserinde ortaya koyduğu yaklaşık yedi bin yıllık geçmişe ilişkin tarih anlayışı, yazarın millî tarih tasavvuru çerçevesinde ele alınmakta; bu tarih anlayışının düşünce tarihindeki önemi ile tarihsel doğruluğu birbirinden ayrılarak değerlendirilmektedir. Zehtabi'nin mirası, İran Türklerinin kendi dillerinde kendi geçmişleri ve kimlikleri üzerine düşünmelerine sağladığı imkânlar bakımından değerlendirilmektedir.

Anahtar sözcükler: Muhammed Taki Zehtabi, İran'da Türkçülük, İran Türkleri, İran Azerbaycanı, ana dili, tarihî hafıza, millî öz bilinç, aydınlanma.

---

[1] Kanada'da yayımlanan *TURUK* Akademik ve Araştırma Dergisi ile *Azerbaijan Post*'un Yayıncısı, Gazetecisi ve Genel Yayın Yönetmeni.
e-posta: alipoorali@turuk.org; ORCID: 0009-0001-7573-854X.

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 175-193
Telif Haqqı©Varlıq Dergisi

Prof. Dr. Muhammadtaqi Zehtabi: One of the Intellectual Pioneers of Turkism in Iran

• **Yashar (Ali) POORALI** [1]

Abstract: This article examines Professor Mohammad Taqi Zehtabi's place in the development of Turkist thought in Iran through his life trajectory, mother-tongue educational activities, historical scholarship, and cultural ties with various Turkic communities. The study is based on a thematic comparison of biographical writings, bibliographical studies, book presentations, and memoirs. Its central argument is that, although Zehtabi emerged from Azerbaijan of Iran, he developed his thinking on language, history, and national identity within a framework encompassing the Turks of Iran. His works intended to facilitate mother-tongue learning, his treatment of the history of the Turks of Iran as an independent subject of research, and his connections with Qashqai, Khalaj, Turkmen, and Shahsevan intellectuals demonstrate the breadth of his intellectual outlook. Various authors' assessments of his legacy are analysed in terms of the relationship between language, historical memory, and cultural solidarity. The designation "one of the intellectual pioneers of Turkism in Iran" characterises his educational and guiding role in bringing these strands together. The thesis of a past extending approximately seven thousand years, advanced in his work *The Ancient History of the Turks of Iran*, is considered within the framework of his conception of national history; its significance in intellectual history is distinguished from its historical substantiation. Zehtabi's legacy is evaluated in terms of the opportunities he created for the Turks of Iran to reflect on their past and identity in their own languages.

Keywords: Mohammad Taqi Zehtabi; Turkism in Iran; Turks of Iran; Azerbaijan of Iran; mother tongue; historical memory; national self-awareness; enlightenment.

---

[1] Publisher, Journalist, and Editor-in-Chief of the Canada-based *TURUK Academic and Research Journal* and *Azerbaijan Post*.
e-mail: alipoorali@turuk.org; ORCID: 0009-0001-7573-854X.

VARLIQ وارلیق

Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 175-193
Telif Haqqı©Varlıq Dergisi

یکی از پیشگامان فکری ترک‌گرایی در ایران: پروفسور دکتر محمدتقی زهتابی

• **یاشار (علی) پورعلی**[۱]

چکیده: این مقاله جایگاه پروفسور محمدتقی زهتابی را در روند شکل‌گیری و گسترش اندیشه ترک‌گرایی در ایران، بر اساس زندگی و فعالیت‌های وی، تلاش‌های روشنگرانه‌اش در زمینه زبان مادری، فعالیت‌های تاریخ‌نگارانه و روابط فرهنگی او با جوامع مختلف ترک بررسی می‌کند. پژوهش حاضر بر مقایسه موضوعی نوشته‌های زندگی‌نامه‌ای، تحقیقات کتاب‌شناختی، معرفی کتاب‌ها و خاطرات استوار است.

تز اصلی مقاله این است که زهتابی، هرچند در آذربایجان ایران پرورش یافته بود، اندیشه خود درباره زبان، تاریخ و هویت ملی را در مقیاس گسترده‌ترِ ترکان ایران شکل داده بود. آثاری که وی برای آموزش زبان مادری تألیف کرد، تبدیل گذشته ترکان ایران به موضوعی مستقل برای پژوهش، و نیز ارتباط او با روشنفکران قشقایی، خلج، ترکمن و شاهسون، گستردگی این افق فکری را نشان می‌دهد.

ارزیابی‌های نویسندگان مختلف درباره میراث زهتابی از منظر پیوند میان زبان، حافظه تاریخی و همبستگی فرهنگی تحلیل می‌شود. تعبیر «یکی از پیشگامان فکری ترک‌گرایی در ایران»، ارزیابی نقش روشنگر و جهت‌دهنده او در پیوند دادن این حوزه‌ها با یکدیگر است.

رویکرد تاریخی زهتابی درباره گذشته‌ای نزدیک به هفت هزار سال که در اثر او با عنوان *تاریخ دیرین ترکان ایران* مطرح شده است، به‌عنوان بخشی از تلقی وی از تاریخ ملی مورد بررسی قرار می‌گیرد؛ در این بررسی، میان اهمیت این رویکرد تاریخی در تاریخ اندیشه و میزان صحت تاریخی آن تمایز قائل می‌شود. میراث زهتابی از این منظر ارزیابی می‌شود که چه امکاناتی برای ترکان ایران فراهم ساخته است تا به زبان خود درباره گذشته و هویت خویش بیندیشند.

کلیدواژه: محمدتقی زهتابی، ترک‌گرایی در ایران، ترکان ایران، آذربایجان ایران، زبان مادری، حافظه تاریخی، خودآگاهی ملی، روشنگری.

---

[۱] ناشر، روزنامه‌نگار و سردبیر نشریه علمی و پژوهشی *TURUK* و *Azerbaijan Post*، منتشرشده در کانادا.
ایمیل: alipoorali@turuk.org ؛ اورسید: 0009-0001-7573-854X

VARLIQ وارلیق
Dil, Ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2026: 44(2), ss. 175-193
Telif Haqqı©Varlıq Dergisi

İran Türkçülüyünün Fikir Öncülərindən Biri Prof. Dr. Məhəmməd Tağı Zehtabi

● **Yaşar (Ali) PURALİ**

Giriş

Prof. Məhəmməd Tağı Zehtabi'nin irsində ana dili ilə millî kimlik arasında davamlı əlaqə vardır. Dil onun fəaliyətində yalnız gündəlik ünsiyət vasitəsi deyil, insanın öz keçmişini öyrənməsi, düşüncəsini ifadə etməsi və mənsub olduğu topluluqla əlaqəsini qoruması üçün əsasdır. Dilçilik, ədəbiyat və tarix sahələrində çalışması bu əlaqənin müxtəlif tərəflərini üzə çıxarır. Onun İran'da Türkçülük düşüncəsindəki yerini anlamaq üçün ayrı-ayrı əsərlərini və həyat hadisələrini bu ümumi istiqamət daxilində nəzərdən keçirmək lazımdır.

Məqalənin əsas sualı Zehtabi'nin Türkçülük düşüncəsini hansı intellektual və mədəni vasitələrlə ifadə etməsi və bu düşüncənin İran Türkləri miqyasında necə qurulmasıdır. Onun Şəbüstər və Təbriz'lə bağlılığı fəaliyətinin başlanğıcını və əsas mühitini müəyyənləşdirir. Lakin "İran Türkləri" anlayışını işlətməsi və başqa Türk topluluqları ilə əlaqələri bu fəaliyəti yalnız İran Azərbaycan'ının sərhədlərində izah etməyin yetərli olmadığını göstərir. Azərbaycan mənsubiyəti onun daha geniş Türk kimliyi düşüncəsinin yerli əsasıdır.

Bu məqalədə Türkçülük Türk dilinin, milli mənsubiyətin və tarixi hafizənin şüurlu müdafiəsinə yönələn düşüncə və fəaliyət kimi başa düşülür. Zehtabi'nin irsində bu istiqamət ana dili maarifçiliyi, tarix yazıcılığı və mədəni hüquqlar haqqında mövqelərlə ifadə olunur.

Türkçülüyün fikri inkişafındakı yönverici rolu həmin istiqamətləri birləşdirən və öyrənmə vasitələrinə çevirən roluna aiddir; İran'da Türkçülüyün onunla başladığı və ya bütünlüklə onun tərəfindən yaradıldığı mənasında işlədilmir.

Bu tədqiqatın əsas arqumenti Zehtabi'nin Türkçülüyünün ana dili, tarix və mədəni əlaqələr arasında qurduğu davamlı münasibətdə formalaşmasıdır. Dilçilik əsərləri kimliyin öyrənilməsi və nəsillərə ötürülməsi üçün vasitələr yaradır, tarixçilik həmin kimliyin keçmişdəki yerini şərh edir, müxtəlif Türk topluluqları ilə təmaslar isə onun müraciət dairəsini genişləndirir. Bu sahələri birlikdə nəzərdən keçirdikdə Zehtabi'nin yönverici rolu daha aydın görünür. İran'da Türkçülüyün fikrî inkişafında yönverici ziyalı kimi qiymətləndirilməsi də bu qarşılıqlı əlaqəyə söykənir.

Əvvəlki araşdırmalar və tədqiqatın istiqaməti

Kafkasyalı'nın (2016) araşdırması Zehtabi'nin həyatını və əsərlərini dil, ədəbiyat, tarix və ictimai fəaliyət sahələri üzrə təqdim edir. Məmmədli (2025) onun ədəbi irsi və ana dili ilə bağlı mövqeyini önə çıxarır. Mədətli'nin (1999) kitab təqdimatı "İran Türklərinin Əski Tarixi"nin ilk cildinin nəşri və məzmunu haqqında dövrə yaxın məlumat verir. Nəsibli (2001) isə həmin əsərdəki qədimlik haqqında tarixi yanaşmasını milli kimlik müzakirəsi daxilində xatırladır. Bu mənbələr eyni məqsədlə yazılmadığından onlardan alınan məlumatların funksiyası da fərqlənir.

Bu araşdırmaların birlikdə oxunması Zehtabi'nin irsinin fərqli tərəflərini bir-birinə bağlayır. Kafkasyalı'nın göstərdiyi mədəni əlaqələr onun müraciət dairəsini, Məmmədli'nin təqdim etdiyi dil və ədəbiyat əsərləri bu müraciətin ifadə vasitələrini, Mədətli və Nəsibli'nin yazıları isə tarixi hafizəylə milli kimlik arasındakı münasibəti aydınlaşdırır. Məqalənin yanaşması həmin məlumatları Zehtabi'nin Türkçülük düşüncəsinin daxili əlaqələri əsasında şərh etməkdir.

Mənbələr və təhlil üsulu

Tədqiqat seçilmiş bioqrafik, biblioqrafik və ədəbi mənbələrin tematik müqayisəsinə əsaslanır. Əsas materialı Kafkasyalı'nın əsərlər və fəaliyət haqqında araşdırması, Məmmədli'nin ədəbi irsə dair yazısı, Mədətli'nin kitab təqdimatı və Nəsibli'nin milli kimlik müzakirəsi təşkil edir. Borumənd Fondu'nun materialı və Azadgər'in nəqli həyat yolunun, Musayeva'nın yazısı ədəbi irsin yayılmasının, Mərdani Rəhimi'nin xatirə və müqəddimə parçaları isə mədəni təmasların öyrənilməsində istifadə olunur.

Mənbələr dil və maarifçilik, tarixi yaddaş, mədəni əlaqələr və siyasi düşüncə istiqamətləri üzrə təhlil edilir. Bioqrafik məlumatlarla sonrakı qiymətləndirmələr fərqləndirilir; Zehtabi'nin başqa müəlliflər tərəfindən

nəql edilən sözləri vasitəçi mənbəyə istinadla verilir. Əsərlərin bütün mətnləri birbaşa araşdırılmadığı üçün burada irsin seçilmiş mənbələrdə təqdim olunan xüsusiyətləri şərh olunur. Qədim tarixə dair mübahisəli tarixi yanaşmalar və ölüm haqqında ehtimallar mənbələrdəki iddia səviyyəsində saxlanılır.

Kafkasyalı'nın 2017-ci il veb yayımı 2016-cı il məqaləsinin yenidən nəşri kimi nəzərə alınır. Xatirələr və anma yazıları müəlliflərinin mövqeyi ilə birlikdə oxunur. Bu yanaşma müasirlərin və tədqiqatçıların qiymətləndirmələrini Zehtabi'nin düşüncəsinin məzmunu və qəbul tarixi ilə əlaqələndirməyə imkan verir.

Həyat yolunun intellektual konteksti

Borumənd Fondu'nun bioqrafik məlumatına görə, Zehtabi 22 azər 1302-ci ildə, miladi təqvimlə 13 dekabr 1923-cü ildə Şəbüstər'də doğulmuşdur. İbtidai təhsilini doğma şəhərində, sonrakı təhsilini Təbriz'in Füyuzat məktəbində və müəllimlər məktəbində almışdır. Müəllimlik fəaliyəti ilə yanaşı, Azərbaycan Demokrat Firqəsi'nin gənclər təşkilatında iştirak etmiş, Milli Hökumət dövründə Təbriz Universitəsində oxumuşdur (Borumənd Fondu, tarixsiz).

Şəbüstər'dən Təbriz'ə uzanan təhsil yolu Zehtabi'nin sonrakı maarifçilik fəaliyətinin başlanğıcıdır. Məktəb, müəllim hazırlığı və üniversitə onun həyatında bir-birini izləyən mərhələlər olmuşdur. Milli Hökumət dövründə aldığı təhsil ana dilinin ictimai və tədris məkanındakı mövqeyini düşünmək üçün ayrıca təcrübə yaradır. Bu başlanğıcın məqalə üçün əhəmiyəti Türkçülüyün onun irsində yalnız siyasi fikir kimi deyil, müəllimlik və bilik ötürmə işi ilə bağlı şəkildə görünməsidir. Sonrakı qrammatika və yazı öyrənmə əsərləri də bu maarifçilik istiqamətinin davamı kimi oxuna bilər.

1946-cı ildə Milli Hökumətin süqutundan sonrakı təqib şəraitində Zehtabi'nin həyatı mühacirət mərhələsinə daxil olmuşdur. O, 1948-ci ildə təhsilini davam etdirmək üçün Sovet Azərbaycanı'na keçmiş, lakin həbs və sürgünlə qarşılaşmışdır. Azadgər (2024) Zehtabi'nin "İran Türklərinin Əski Tarixi" üçün yazdığı bioqrafiyasından nəql edərək ikiillik həbs hökmünü Tudə Partiyası rəhbərliyinin hesabatı ilə əlaqələndirir. Həmin nəqlə görə, o, Sibirə göndərilmiş, daha sonra Düşənbə'yə sürgün edilmişdir. Beləliklə, hadisə haqqında təqdimatda partiya rəhbərliyinin hesabatı ilə Sovet orqanlarının tətbiq etdiyi həbs və sürgün bir-birinə bağlanır (Azadgər, 2024).

Sibir sürgünündən sonra Zehtabi'yə Sovet Azərbaycanı'nda yaşamaq icazəsi verilməmiş və o, Tacikistan'a göndərilmişdir (Borumənd Fondu, tarixsiz). Bakı'ya qayıdışının əngəllənməsi bu yaşayış məhdudiyətinin bir hissəsidir. Mənbə həmin məhdudiyəti bildirir, lakin onun ayrıca qərarını

və rəsmi əsaslandırmasını təqdim etmir. Məmmədli onun Stalin öldükdən sonra bəraət aldığını və Düşənbə'yə göndərildiyini yazır; 1954-cü ildə Bakı'da təhsilini davam etdirməsi sonrakı mərhələdir (Məmmədli, 2025; Azadgər, 2024).

Stalin dövründə baş vermiş həbs və yaşayış məhdudiyətləri Zehtabi'nin mühacirət təcrübəsinin ağır tərəfini göstərir. Mövcud nəqllər Stalin tərəfindən verilmiş şəxsi əmri müəyyənləşdirmədiyindən hadisə dövrün repressiya sistemi daxilində qiymətləndirilməlidir. Təhsil və siyasi sığınma ümidi ilə keçdiyi mühitdə də həbs və sürgünlə qarşılaşması onun həyatında azadlıqla mənsubiyət arasındakı münasibəti kəskinləşdirən təcrübə kimi görünür. Ədəbi irsdəki əsarət və yaşamaq iradəsi mövzuları bu həyat konteksti ilə birlikdə oxunduqda daha aydın məna qazanır.

Zehtabi'nin yaşadığı təzyiqi Stalin dövründə Türk ziyalılarına və ümumi Türk kimliyi ilə bağlı düşüncələrə qarşı münasibətin tarixi fonunda nəzərdən keçirmək də əhəmiyətlidir. Harun Yilmaz'ın araşdırması 1937Ḍ 1938-ci illərdə panTürkçülük və Türkiyə'nin agenti olmaq ittihamları ilə təqibləri, eləcə də Bakı'nın Türkoloq və tarixçi mühitinin repressiyalar nəticəsində dağıdılmasını göstərir. Bu baxımdan milli dilə və Türk tarixinə yönələn ziyalı fəaliyəti siyasi şübhə və təqibin hədəfinə çevrilə bilirdi. Repressiyalar yalnız bir şəxslə məhdudlaşmırdı; Türk ziyalılarının daha geniş dairəsinə təsir etmişdi (Yılmaz, 2013).

Yılmaz Türk kimliyindən rəsmi Azərbaycan kimliyi adlandırmasına keçidi beynəlxalq münasibətlər və Sovet tarix siyasəti ilə birlikdə izah edir (Yılmaz, 2013). Bu fon Zehtabi'nin sürgününü milli düşüncə ilə dövlətin ideoloji nəzarəti arasındakı münasibət baxımından şərh etməyə imkan verir. Lakin 1937-1938-ci illərin repressiyaları ilə onun 1948-ci ildən başlayan həbsini eyni hadisə saymaq olmaz. Zehtabi'nin məhz Türkçülüyə görə cəzalandırıldığını müəyyənləşdirmək üçün fərdi iş sənədləri lazımdır; mövcud bioqrafik nəql Tudə rəhbərliyinin hesabatını göstərir. Burada əlaqə müəllifin tarixi kontekst şərhidir.

Zehtabi'nin sürgün təcrübəsini təhlil edərkən partiya rəhbərliyinin hesabatını, Sovet orqanlarının cəza tədbirlərini və milli düşüncəyə qarşı ideoloji nəzarəti əlaqəli, lakin fərqli səviyyələr kimi nəzərə almaq lazımdır. Azadgər'in nəqli Tudə rəhbərliyinin rolunu göstərir; Sovet Azərbaycanı'nda yaşamasına icazə verilməməsi və Tacikistan'a göndərilməsi isə təzyiqin həbs müddəti ilə bitmədiyini ortaya qoyur. Milli mənsubiyət baxımından bu məhdudiyətin nəticəsi onun Azərbaycan dil və mədəniyət mühitindən uzaqda saxlanmasıdır. Stalin dövründə Türk ziyalılarına qarşı repressiyalar həmin təcrübənin tarixi fonunu təşkil edir. Bununla belə, Zehtabi'nin fərdi cəzasının birbaşa Türkçülük düşüncəsinə görə verildiyi mövcud materiallarla qəti müəyyənləşdirilmir. Burada əsaslandırılan nəticə siyasi nəzarətin onun təhsil və mənsubiyət mühiti ilə

əlaqəsini məhdudlaşdırmasıdır; bu təcrübənin sonrakı milli düşüncəsinə təsiri isə əsərləri və həyat yolu birlikdə oxunaraq şərh edilməlidir.

Azadgər'in məlumatına görə, Zehtabi 1954-cü ildə Bakı'ya gəlib dövlət üniversitəsinin dil və ədəbiyat fakültəsində beş il təhsil almış, təhsilinin sonlarına yaxın şərqşünaslıq fakültəsində Ərəb dili tədrisinə başlamışdır (Azadgər, 2024). Borumənd Fondu 1969-cu ildə Əbu Nüvas'ın həyatı və yaradıcılığı haqqında dissertasiya müdafiəsini qeyd edir. Sonrakı mərhələdə Bağdad'da fəaliyət göstərmiş, 1979-cu il inqilabından sonra İran'a qayıtmışdır (Borumənd Fondu, tarixsiz).

Bakı'da dil və ədəbiyat təhsili, ərəb dili müəllimliyi və dissertasiya işi Zehtabi'nin elmi fəaliyətinin fərqli istiqamətləridir. Bu mərhələdə müəllimlik yalnız əvvəlki peşəsinin davamı olmamış, üniversitə mühitində ixtisaslaşmış bilik ötürmə formasına çevrilmişdir. Bağdad'dakı fəaliyəti isə onun elmi həyatının başqa bir dil və mədəniyət mühitində davam etdiyini göstərir. Zehtabi'nin İran Türkləri haqqında sonrakı çalışmalarını nəzərdən keçirərkən bu çoxdilli elmi təcrübəni də nəzərə almaq lazımdır: ana dilinə bağlılığı başqa dilləri öyrənmiş və öyrətmiş ziyalının seçimidir.

Zehtabi'nin həyatında müəllimliklə başlayan dil fəaliyəti mühacirətdə elmi ixtisaslaşma ilə davam etmişdir. Ərəb dili tədrisi və Əbu Nüvas haqqında dissertasiyası onun başqa ədəbi ənənələrə də açıq olduğunu göstərir. Bu baxımdan Türk kimliyinə bağlılığı başqa dillərin elmi və mədəni dəyərini rədd edən mövqe kimi izah etmək düzgün olmaz. Onun ana dilinə yönəlməsi müxtəlif dil mühitlərində qazandığı biliklə yanaşı inkişaf etmişdir. Sürgün və mühacirət isə ədəbi irsində vətən, dil və mənsubiyət mövzularını anlamaq üçün mühüm həyat kontekstidir.

Zehtabi'nin ana dili fəaliyətini İran'ın dəyişən nəşr və təhsil şəraitində nəzərdən keçirmək lazımdır. Encyclopaedia Iranica'nın Azərbaycan Türkcəsi ədəbiyatı haqqında məqaləsi Pəhləvi dövrünün nəşr məhdudiyətlərini, 1941-1946-cı illərin fərqli şəraitini və 1979-cu il inqilabından sonra genişlənən nəşr imkanlarını ayırır (Encyclopaedia Iranica, 1988). Belə şəraitdə ana dilində kitab hazırlamaq dilin yazılı və elmi istifadəsinə xidmət edən maarifçilik fəaliyəti idi. Zehtabi'nin dilçilik əsərləri bu ehtiyaca verdiyi cavab kimi görünür.

Nəşr imkanları ilə ana dilində davamlı təhsil imkanları eyni məsələ deyil. Kitab çapının mümkün olduğu şəraitdə də oxucunun həmin dili sistemli öyrənməsi üçün qrammatika, yazı qaydaları və uyğun mətnlərə ehtiyacı qalır. Zehtabi'nin əsərləri bu ehtiyacın müxtəlif tərəflərinə yönəlir. Dilin yazılı qaydalarını izah etmək, onunla ədəbi mətn yaratmaq və tarix haqqında həmin dildə danışmaq bir-birini tamamlayan işlərdir. Bu əlaqə Türkçülüyün onun fəaliyətində mədəni varlığı qorumaqla yanaşı bilik istehsalına da yönəldiyini göstərir.

Ana dili və Türkçülük düşüncəsinin maarifçi əsası

Pərvanə Məmmədli'nin məqaləsində Zehtabi'nin "İslama Qədər İran Türklərinin Dili və Ədəbiyatı" əsərinin girişindən "xalqımızın və ümumiyətlə, çağdaş İran Türklərinin" ifadəsi nəql edilir. Həmin yazıda onun coğrafi çərçivəni İran'ın qərbi, mərkəzi və Xəzər'in cənub bölgələrinə yaydığı göstərilir (Məmmədli, 2024).

"Xalqımızın" və "ümumiyətlə, çağdaş İran Türklərinin" yanaşı işlədilməsi Zehtabi'nin düşüncəsinin quruluşunu açıqlayır. O, özünün yetişdiyi xalqı daha geniş Türk topluluqları dairəsi ilə əlaqələndirir. Bu ifadədə yerli mənsubiyət qorunur, amma müraciət yalnız bir bölgədə dayanmır. İran Türkləri onun üçün ölkənin müxtəlif bölgələrində yaşayan, dil və mədəniyət baxımından əlaqəli topluluqları əhatə edən anlayışdır. Məmmədli'nin nəql etdiyi sözlər bu genişliyin müəllifin öz ifadəsində də yer aldığını göstərir.

Bu yanaşmada İran siyasi və coğrafi çərçivəni, Türklər isə həmin çərçivədə öz dili və tarixi olan topluluqları bildirir. Zehtabi'nin İran Azərbaycanı'nda yetişməsi ilə İran Türklərinə müraciəti arasında ziddiyət yoxdur. Birincisi onun düşüncəsinin formalaşdığı mühit, ikincisi bu düşüncənin açıldığı daha geniş sahədir.

"İran Türkləri" anlayışının əhatəsi əsər adlarında və müəllif haqqında verilən məlumatlarda birlikdə görünür. "İslama Qədər İran Türklərinin Dili və Ədəbiyatı" dil və ədəbiyat tarixini, "İran Türklərinin əski tarixi" isə keçmişi bu çərçivədə mövzulaşdırır. Belə adlandırma Türkləri İran tarixi daxilində ayrıca danışılan subyektə çevirir. Məmmədli'nin nəql etdiyi İran'ın qərbi, mərkəzi və Xəzər'in cənub bölgələri haqqında məlumat da həmin anlayışın yalnız Təbriz və ətrafını bildirmədiyini göstərir. Yerli Azərbaycan təcrübəsi daha geniş coğrafiyada yaşayan Türklərin tarix və dil məsələlərinə açılır.

Cavad Heyət'in "Türk Dilləri və Ləhcələrinin Tarixi" kitabının ikinci cildində Məhəmmədtağı Zehtabi'nin "İran Türkçəsinin Sərfi" əsərinin 1358-ci (1979-cu) ildə "Armağan" nəşriyatında çap olunduğu qeyd edilir (Heyət, II kitab, s. 151). Bu biblioqrafik məlumat Zehtabi'nin əsərin adında "İran Türkçəsi" ifadəsindən istifadə etdiyini göstərir. Həmin adlandırmada "İran" coğrafi məkanı, "Türkçə" isə dil mənsubiyətini ifadə edir. Bu baxımdan əsərin adı Zehtabi'nin ana dilinə münasibətini və dilçilik fəaliyətini İran Türklərinin dil və mədəni kimliyi ilə əlaqəli şəkildə nəzərdən keçirməyə imkan verir. "Sərf" anlayışı isə dilin qrammatik quruluşunun öyrənilməsinə işarə edərək onun fəaliyətinin maarifçi istiqamətini əks etdirir.

Qrammatika və yazı qaydaları haqqında əsərlərin Türkçülük baxımından əhəmiyəti milli bağlılığı gündəlik öyrənmə fəaliyətinə çevirməsindədir. Ana dilini sevmək çağırışı burada onu düzgün yazmaq, oxumaq və həmin dildə bilik əldə etmək imkanı ilə tamamlanır. Dil ailə daxilində danışılan vasitədən tədrisin və yazılı düşüncənin vasitəsinə keçir. Zehtabi'nin maarifçiliyi Türk kimliyini yalnız hiss və bəyanat səviyyəsində saxlamır; onu öyrədilə və ötürülə bilən mədəni təcrübəyə bağlayır.

"Ana Dilimizi Öyrənək" və "Ana Dilimizi Necə Yazaq" başlıqları bu maarifçiliyin müraciət formasını da göstərir. Başlıqlardakı "dilimiz" mənsubiyətə, "öyrənək" və "yazaq" isə görüləcək işə yönəlir. Milli düşüncə beləliklə oxucuya verilən ümumi çağırışdan öyrənmə fəaliyətinə keçir. Bu, əsərlərin bütün məzmununu yalnız adlarından çıxarmaq demək deyil; adlandırmanın göstərdiyi istiqamət qrammatika və yazı haqqında verilən biblioqrafik məlumatlarla tamamlanır (Məmmədli, 2025). Zehtabi'nin dilə yanaşmasının praktik xüsusiyəti də bu əlaqədə görünür.

Məmmədli'nin (2025) təqdimatında "Sən Osan, Mən də Buyam" ana dilinin ailə daxilində ötürülməsi və kimlik fərqinin tanınması ilə, "Mən Diriyəm" isə sürgün şəraitində yaşamaq və xalqa xidmət etmək iradəsi ilə əlaqələndirilir. Bu oxunuş Zehtabi'nin ədəbi irsində dil və mənsubiyətin fərdi həyatla necə qovuşduğunu göstərir. Ana dili insanın özünü tanımasının və nəsillər arasında əlaqənin bir hissəsinə çevrilir; sürgün isə həmin əlaqənin qorunmasına yönələn iradəni önə çıxarır.

Zehtabi'nin yaradıcılığı şeir və tarix kitabları ilə məhdudlaşmır. Kafkasyalı 1993-cü ildə Təbriz'də "M. Mişovlu" imzası ilə nəşr edilmiş "Qoy Olsun On" kitabını hekayə və xatirələr toplusu kimi göstərir. Mühacirət təcrübəsinin nəsrə keçməsi fərdi yaddaşın qorunmasına xidmət edir (Kafkasyalı, 2016, s. 77).

"Başqa Dilim, Elim Var Mənim" toplusunun nəşri haqqında məlumatda 1947-1978-ci illərin şeirlərinin bir araya gətirildiyi bildirilir. Bu nəşr Zehtabi'nin tarixçi və Türkoloq kimliyi ilə yanaşı şair kimi də tanınmasını genişləndirir (Musayeva, 2011). Məmmədli'nin (2025) göstərdiyi "Türkcəm Mənim, Səs Bayrağım" adı dilin milli mənsubiyət nişanı kimi düşünülməsini ifadə edir. Bayraq obrazının səsə bağlanması kimliyin danışıqda və ana dilinin yaşadılmasında görünməsi kimi oxuna bilər.

Məmmədli'nin təqdim etdiyi ədəbi irsdə "Şahin Zəncirdə", "Pərvanənin Sərgüzəşti" və "Bağban El Oğlu" kimi əsərlər də qeyd olunur (Məmmədli, 2025). Bu irsdə fərdi tale, əsarət və mənsubiyət mövzularını milli yaddaş baxımından düşünmək mümkündür. Şahinin zəncirdə olması azadlıqla məhdudiyət arasındakı gərginliyin obrazı kimi oxuna bilər; mühacirət şeirlərinin bir araya gətirilməsi isə müxtəlif illərə yayılan təcrübəni sonrakı oxucuya çatdırır. Burada ədəbi obrazlar müəllifin

konkret siyasi proqramı kimi deyil, həyat və mənsubiyət təcrübəsinin bədii ifadəsi kimi təhlil olunur.

Zehtabi'nin əsərlərində fərqli dil adlandırmalarının yanaşı görünməsi də diqqətəlayiqdir. "Çağdaş Ədəbi Azəri Dili" ilə "İslama Qədər İran Türklərinin Dili və Ədəbiyatı" eyni müəllifin irsində yer alır (Məmmədli, 2025). Birinci başlıq müəyyən ədəbi dilin təsvirinə, ikinci daha geniş tarixi və mədəni çərçivəyə yönəlir. Bu fərq Azərbaycan mənsubiyəti ilə Türk kimliyini qarşılıqlı şəkildə inkar edən anlayışlar kimi təqdim etməyə əsas vermir. Zehtabi'nin milli düşüncəsini anlamaq üçün terminlərin işlədildiyi mövzunu və əsərin məqsədini nəzərə almaq lazımdır.

Zehtabi'nin dilçilik və ədəbi yaradıcılığı bir-birini tamamlayır. Qrammatika dilin yazılı qaydalarını öyrədir, şeir və nəsr isə həmin dildə həyat təcrübəsinə məna verir. Türkçülük düşüncəsi bu əlaqədə həm şüurlu dil müdafiəsi, həm də milli mənsubiyətin yaşanan ifadəsi kimi görünür. Onun irsinin maarifçi xüsusiyəti dil haqqında düşünməklə dildə düşünməyi birləşdirməsidir.

Bu əlaqə Zehtabi'nin Türkçülüyünü praktik maarifçilik fəaliyəti kimi qiymətləndirməyə əsas verir. Qrammatika və yazı öyrənmə kitabları oxucunun ana dilindən şüurlu istifadə imkanını genişləndirir; şeir və nəsr həmin dilin fərdi yaddaşı və mənsubiyəti ifadə etmək gücünü göstərir. Beləliklə, milli düşüncənin davamlılığı yalnız onun müdafiə olunmasına deyil, öyrənilməsinə, yazılmasına və yeni mətnlərdə yaşadılmasına bağlanır. Zehtabi'nin müəllimliklə yaradıcılığı birləşdirən mövqeyi bu davamlılığın qurulmasına xidmət edir.

İran Türkləri arasında mədəni əlaqələr və siyasi düşüncə

Kafkasyalı (2016) Zehtabi'nin "Qaşqayı Yaylağa Köçür" əsərini və Qaşqayı, Xələc, Türkmən, Şahsevən ziyalıları ilə ədəbi və mədəni əməkdaşlığını qeyd edir. Bu məlumat Zehtabi'nin Türkçülük düşüncəsinin İran Azərbaycanı ilə məhdudlaşmadığını göstərən mühüm qiymətləndirmədir. Başqa Türk topluluğuna ayrılan əsərlə müxtəlif ziyalı çevrələri ilə əməkdaşlığın birlikdə görünməsi onun marağının həm yaradıcılıqda, həm də şəxsi mədəni təmaslarda ifadə olunduğunu göstərir.

Əsədullah Mərdani Rəhimi'nin xatirəsində 1996-cı ildə Tehran'da keçirilən Qaşqayı mədəniyət festivalında Zehtabi ilə görüşməsi qeyd olunur (Mərdani Rəhimi, 2012). Bu görüş Zehtabi'nin Qaşqayı mədəni mühiti ilə əlaqəsini şəxsi tanışlıq səviyyəsində göstərir. Təbriz'lə bağlı ziyalının Tehran'dakı Qaşqay tədbirində görünməsi müxtəlif bölgələrin Türk mədəniyətləri arasında ünsiyət baxımından əhəmiyətlidir.

Mərdani Rəhimi Qaşqay sözlüyünün müqəddiməsindən yayımlanmış hissədə Zehtabi'nin, Hüseyn Məhəmmədzadə Sədiq'in və Cavad Heyət'in əsərləri ilə tanışlığını qeyd edir və onlara təşəkkürünü bildirir

(Mərdani Rəhimi, tarixsiz). Beləliklə, Kafkasyalı'nın göstərdiyi əlaqə Mərdani'nin öz xatirəsi və əsərlərə müraciəti ilə tamamlanır. Burada Zehtabi yalnız başqa topluluq haqqında yazan müəllif deyil, həmin topluluğun tədqiqatçısının müraciət etdiyi ziyalı kimi də görünür.

Bu şəhadətlərin əsas mənası Zehtabi'nin düşüncəsində İran Türklüyünün bir bölgənin başqa adı olmamasıdır. Qaşqay, Xələc, Türkmən və Şahsevən çevrələri ilə əlaqələrin qeyd edilməsi ortaq Türk mənsubiyəti ilə müxtəlif yerli mədəniyətlərin yanaşı düşünülməsinə imkan verir. Onun İran Türkləri miqyasında rolu bütün bölgələrdə eyni intensivliklə işləməsi kimi deyil, əsərlərinin müraciət dairəsinin və mədəni münasibətlərinin genişliyi kimi başa düşülməlidir. Bu genişliyin konkret nümunəsi qaşqay tədqiqatçısının onun irsinə verdiyi dəyərdir.

Kafkasyalı'nın ümumi qiymətləndirməsi ilə Mərdani Rəhimi'nin konkret tanışlıq və təşəkkür məlumatları fərqli baxış nöqtələrindən eyni əlaqə sahəsini işıqlandırır. Birincisi Zehtabi'nin müxtəlif Türk ziyalı çevrələri ilə əməkdaşlığını təsvir edir, ikincisi onun əsərlərinin qaşqay tədqiqatçısı üçün əhəmiyətini göstərir. Bu iki səviyyənin birlikdə nəzərdən keçirilməsi məqalədə başqa müəlliflərin fikirlərinin niyə mühüm olduğunu açıqlayır: Zehtabi'nin İran Türklərinə yönəlməsini yalnız öz əsərlərinin adları ilə deyil, irsinə müraciət edən şəxslərin şəhadəti ilə də izləmək mümkün olur.

Kafkasyalı'nın (2016) təqdim etdiyi materialda Fars dilinin başqa milli dillərdən üstünlüyünü sorğulayan nəşr olunmamış əsər başlığı və müsahibədən nəql edilən demokratik federativ idarəçilik fikirləri də vardır. Bu məlumatlar Zehtabi'nin ana dili marağının dil bərabərliyi və idarəçilik məsələlərinə də açıldığını göstərir. Başqa xalqlarla əməkdaşlıq düşüncəsi onun Türk kimliyini müdafiəsinin İran daxilində birgəyaşayış və bərabərlik haqqında mövqelərlə əlaqəsini aydınlaşdırır. Nəşr olunmamış əsərin bütün arqumentləri məlum olmadığından onun məzmunu haqqında nəticə başlığın göstərdiyi mövzu ilə məhdud qalır.

Dil üstünlüyünü sorğulayan mövzu Türkçülük düşüncəsində mühüm bir sualı ortaya çıxarır: bir dilin elmi və ictimai imkanlarının geniş olması onun başqa dillərdən mahiyətcə üstün olduğu anlamına gəlirmi? Zehtabi'nin göstərilən əsər başlığı bu iyerarxiyanın müzakirəsinə yönəlir. Ana dili dərslikləri ilə yanaşı nəzərdən keçirildikdə burada dil bərabərliyinin həm düşüncə, həm də maarifçilik tərəfi görünür. Federativ idarəçilik və xalqlar arasında əməkdaşlıq haqqında nəql edilən fikirlər isə milli mənsubiyətin ölkə daxilində siyasi münasibətlər haqqında düşüncə ilə də əlaqələndirildiyini göstərir (Kafkasyalı, 2016).

Borumənd Fondu'nun məlumatına görə, Zehtabi qayıdışından sonra Təbriz Üniversitəsində fəaliyət göstərmiş, 1980-ci ildə üniversitədən uzaqlaşdırılmış və sonradan həbs olunmuşdur. Fond həmçinin onun

1998-ci ildə Xatəmi'yə ünvanlanan kollektiv müraciətə qoşulduğunu bildirir. Müraciətdə Türkdilli bölgələrdə Türk dilinin tədrisi, media proqramları və universitet bölmələri tələb edilirdi (Boruməndd Fondu, tarixsiz).

Türk dilinin məktəb, üniversitə və mediada yer alması tələbi Zehtabi'nin elmi işi ilə ictimai mövqeyi arasında davamlılıq yaradır. Ana dilini öyrətmək üçün kitab hazırlayan ziyalı həmin dilin öyrədilməsi üçün ictimai imkanların genişlənməsini də istəyir. Tarix əsərlərində keçmişin subyekti kimi təqdim etdiyi İran Türkləri burada çağdaş təhsil və informasiya məkanının iştirakçısı kimi görünür. Dilçiliklə mədəni hüquq tələbinin bu əlaqəsi onun Türkçülüyünün praktik tərəfini göstərir.

İran'a qayıdış Zehtabi'nin fəaliyətini yenidən doğma dil mühiti ilə birbaşa əlaqələndirmişdir. Üniversitədən uzaqlaşdırılma və həbs haqqında məlumatlar bu fəaliyətin maneəsiz davam etmədiyini göstərir. Buna baxmayaraq, 1998-ci il kollektiv müraciətində iştirakı ana dili məsələsinin onun ictimai mövqeyində yerini qoruduğunu göstərən nümunədir (Boruməndd Fondu, tarixsiz). Müraciətdə təhsil və media sahələrinin birlikdə göstərilməsi dilin yalnız şəxsi istifadə ilə məhdudlaşmaması tələbidir. Zehtabi'nin maarifçilik əsərləri ilə bu tələblər arasında əlaqə qurulduqda Türkçülük onun irsində davamlı ictimai məsələ kimi görünür.

Türkçülüyün tarixi hafizə istiqaməti

Əsərin Türkcədə adı "İran Türklərinin Əski Tarixi", Farsca isə " تاریخ دیرین ترکان ایران" kimi tanınır. Eynullah Mədətli'nin 1999-cu ildə *Bilge* jurnalında dərc etdiyi kitab təqdimatı birinci cildin 1998-ci ilin yayında Təbriz'də Ərəb qrafikası ilə nəşr edildiyini və 880 səhifədən ibarət olduğunu göstərir. Bu məlumat ilk cildin Zehtabi'nin ölümündən əvvəl oxucuya çatdığını təsdiqləyən dövrə yaxın biblioqrafik şəhadətdir (Mədətli, 1999, s. 81).

Mədətli kitabın ilk cildinin ən qədim dövrlərdən Makedoniyalı İskəndər'in yürüşünə qədərki zamanı əhatə etdiyini bildirir. Onun nəql etdiyi tarix kitabında təqdim olunan müəllif yanaşmasında Türklərin Yaxın Şərqdə və Arazın hər iki sahilində miladdan təxminən beş min il əvvəl məskunlaşdığı irəli sürülür. Müasir zamandan hesablanan təxminən yeddi minillik keçmiş ifadəsi bu tarixlə əlaqəlidir. Kitabın əhəmiyəti burada yalnız qədimlik rəqəmi ilə deyil, İran tarixində Türklərin yerini ayrıca tədqiqat mövzusuna çevirməsi ilə izah olunur (Mədətli, 1999, s. 81).

Birinci cildin 1998-ci ilin yayında nəşri haqqında məlumat kitabın müəllifin sağlığında ictimai dövriyəyə daxil olduğunu göstərir. Bu tarix onun ölümündən sonra yaranan qiymətləndirmələrlə əsərin öz nəşr

tarixini ayırmağa imkan verir. Mədətli'nin bir il sonra çap edilmiş təqdimatı kitabı dövrə yaxın oxucu və tədqiqatçı baxışından tanıdır. Burada 880 səhifəlik həcm geniş bir tarixi layihənin göstəricisidir; layihənin bütün nəticələrinin doğruluğu isə həmin həcmdən çıxarıla bilməz (Mədətli, 1999, s. 81).

Nəsibli (2001, s. 158) yeddi minillik tarix iddiasını milli kimlik müzakirəsi daxilində Zehtabi'yə aid edir. Bu, əsərin yalnız qədim tarix haqqında kitab kimi deyil, Türklərin mənsubiyətini izah edən müzakirənin bir hissəsi kimi də qəbul olunduğunu göstərir. Mədətli'nin nəşrə yaxın təqdimatı ilə Nəsibli'nin milli kimlik yanaşması birlikdə kitabın məzmununu və düşüncə tarixindəki yerini işıqlandırır. Nəsibli'nin bu tarixi yanaşmanı xatırlatması onun tarixi doğruluğunun ayrıca təsdiqi deyil.

Sumerlər kimi qədim toplumlarla əlaqə qurmaq Zehtabi'nin qədimlik yanaşmasının bir hissəsidir. Mədətli'nin təqdimatı kitabda Sumer, Elam və başqa qədim toplumların Türk tarixinin daxilində şərh edildiyini göstərir. Burada həmin təsnifat Zehtabi'nin yanaşması kimi verilir. Bu toplumların dillərinin Türk dil ilə genetik qohumluğu isə ayrıca filolojik və tarixi sübut tələb edən məsələdir (Mədətli, 1999).

Zehtabi'nin tarixçilik istiqamətində əsas sual Türklərin İran'ın keçmişində hansı yerə sahib olmasıdır. Qədimlik haqqında tarixi yanaşma bu suala uzun müddətli tarixi mənsubiyətlə cavab verməyə çalışır. Mədətli'nin (1999) təqdimatında həmin yanaşma Türkləri bölgə tarixinə sonradan daxil olmuş qüvvə kimi göstərən təsəvvürə cavabla əlaqələndirilir. Bu baxımdan Zehtabi tarixi milli özünüdərkin sahəsinə çevirir: Çağdaş topluluğun özünü yaşadığı məkanın keçmişində görməsini istəyir. Kitabın Türkçülük düşüncəsindəki əhəmiyəti də bu tarixi görünürlük axtarışında üzə çıxır.

Yeddi minillik keçmiş ifadəsinin mənası da dəqiq saxlanmalıdır. Mədətli'nin nəqlində miladdan təxminən beş min il əvvəl məskunlaşma iddiası, Nəsibli'nin müzakirəsində isə yeddi minillik Türk tarixi haqqında kitabda irəli sürülən yanaşma vardır. Söhbət "İran'ın bütövlükdə tarixi yeddi min ildir" hökmündən deyil, həmin coğrafiyada Türk varlığının qədimliyi haqqında müəllif iddiasından gedir (Mədətli, 1999; Nəsibli, 2001). Bu iddianın Zehtabi düşüncəsindəki funksiyası Türklərin keçmişini uzun tarixi zaman daxilində təsəvvür etməkdir. Rəqəmi müəllifin orijinal kitabından birbaşa sitat kimi təqdim etmədən bu funksiyanı araşdırmaq mümkündür.

Milli hafizə yaratmaqla tarixi iddianı elmi şəkildə təsdiqləmək ayrı məsələlərdir. Sumer və elam kimi qədim toplumların dillərinin Türk dilləri ilə qohumluğu ayrıca filolojik, arkeolojik və tarixi əsaslandırma tələb edir. Zehtabi'nin bu sualları Türk kimliyi müzakirəsinə gətirməsi

onun intellektual rolunu göstərir; verdiyi hər cavabı mübahisəsiz qəbul etməyi tələb etmir. İran Türklərinin çağdaş dil və mədəniyət hüquqları da qədimlik haqqında tarixi yanaşmasının təsdiqindən asılı deyildir. Tarix həmin topluluqların özünü anlamasına xidmət edir, hüquqlar isə insanların bərabərliyinə əsaslanır.

Zehtabi'nin tarixçilik fəaliyətinə dair nəticəmiz onun bütün qədimlik haqqında tarixi yanaşmalarının qəbuluna əsaslanmır. İntellektual baxımdan mühüm olan İran Türklərinin öz keçmişini ana dilində araşdıran və müzakirə edən topluluq kimi önə çıxarılmasıdır. Tarixin bu şəkildə mövzulaşdırılması dil maarifçiliyini milli özünüdərklə bağlayır. Qədimlik iddialarına tənqidi yanaşmaq bu yönverici rolu aradan qaldırmır; əksinə, onun düşüncə tarixindəki təsiri ilə ayrı-ayrı tarixi hökmlərinin elmi qiymətləndirilməsini daha dəqiq ayırmağa imkan verir.

Tədqiqatçıların qiymətləndirmələri və Zehtabi'nin Türkçülük düşüncəsində yeri

Kafkasyalı Zehtabi'nin ilkin sosialist və komunist çevrədən zamanla uzaqlaşaraq Türkçülük istiqamətini önə çıxardığını yazır və fəaliyətini İran Türklüyünün davamlılığı ilə əlaqələndirir (Kafkasyalı, 2016). Bu qiymətləndirmə onun siyasi həyatının bütün mərhələləri haqqında yekun hökm deyil, tədqiqatçının irsin əsas yönünə verdiyi izahdır. Məqaləmiz baxımından onun əhəmiyəti Zehtabi'nin dilçilik, tarix və mədəni əlaqələrini eyni milli düşüncənin müxtəlif ifadələri kimi birləşdirməsidir.

Məmmədli'nin (2025) təqdim etdiyi ana dili əsərləri və ədəbi motivlər bu düşüncənin gündəlik öyrənmə və mənsubiyət tərəfini göstərir. Mədətli (1999) tarix kitabının mövzu genişliyini, Nəsibli (2001) həmin tarixi yanaşmaların milli kimlik müzakirəsindəki yerini açıqlayır. Mərdani Rəhimi'nin xatirə və təşəkkürü isə bu irsin qaşqay araşdırma mühitində də əhəmiyət daşıdığını göstərir. Hər müəllif fərqli tərəfi önə çıxarsa da, birlikdə onların yazıları Zehtabi'nin yalnız bir bölgənin tarixçisi və ya şairi kimi təqdim edilməsinin məhdudluğunu üzə çıxarır.

Bu qiymətləndirmələrdə üç fərqli münasibət izlənir. Tədqiqatçı Zehtabi'nin fəaliyətini ümumi fikir istiqaməti daxilində izah edir; kitab təqdimatçısı konkret əsərin mövzusunu və nəşrini göstərir; onunla görüşmüş ziyalı isə şəxsi təması və irsə verdiyi dəyəri ifadə edir. Məqalənin müəllif mövqeyi bu məlumatları ardıcıl sadalamaqla bitmir. Onların arasında əlaqə quraraq Zehtabi'nin Türkçülüyünü ana dilinin öyrənilməsi, tarixi mənsubiyətin şərhi və topluluqlar arasında ünsiyətin birliyi kimi qiymətləndirir. Başqa müəlliflərin fikirləri bu təhlilin əsaslandırılmasında iştirak edir.

Bu əsaslarla Zehtabi'nin fərqli yerini milli düşüncəni öyrənmə vasitələrinə çevirməsində görürük. Onun irsində dilin müdafiəsi dərsliklə,

tarixi mənsubiyətin şərhi geniş tarix layihəsi ilə, ortaq Türk kimliyi isə müxtəlif topluluqlar arasında mədəni təmaslarla ifadə olunur. Bu fəaliyətlərin birlikdə mövcudluğu onu İran'da Türkçülüyün inkişafında yönverici ziyalı kimi qiymətləndirməyə əsas verir. Başqa tədqiqatçıların təqdim etdiyi məlumatlar bu nəticənin ayrı-ayrı tərəflərini əsaslandırır; həmin tərəfləri birləşdirən arqument isə Zehtabi'nin maarifçilik, tarixçilik və mədəni həmrəylik fəaliyətinin vahid milli düşüncə daxilində şərhidir.

Bu məqalədə "İran Türkçülüyünün fikir öncüllərindən biri" qiymətləndirməsinin əsası Zehtabi'nin milli düşüncəni müxtəlif bilik və fəaliyət sahələrində işləməsidir. O, dil haqqında fikri qrammatika və yazı öyrənməsinə, keçmişə marağı tarix araşdırmasına, ortaq mənsubiyəti isə başqa Türk çevrələri ilə mədəni ünsiyətə bağlamışdır. Onun yönverici rolu yalnız kimlik haqqında danışmasında deyil, həmin kimliyin ana dilində öyrənilməsi və ifadəsi üçün vasitələr hazırlamasındadır. Bu, Türkçülüyün inkişafında maarifçi bir rol kimi qiymətləndirilə bilər.

Bu adlandırma Cavad Heyət, Həmid Nütqi, Hüseyn Məhəmmədzadə Sədiq və başqa ziyalıların rolunu aradan qaldırmır. Zehtabi'nin fərqli mövqeyi dil, tarix və müəllimliyi İran Türkləri haqqında düşüncə daxilində birləşdirməsində görünür. Azərbaycan onun mənsub olduğu və fəaliyətinin mühüm hissəsini həyata keçirdiyi mühitdir; İran Türklüyü isə əsərlərinin və əlaqələrinin açıldığı daha geniş üfüqdür. Onu yalnız İran Azərbaycanına həsr olunmuş müəllif kimi göstərmək bu ikinci istiqaməti arxa planda qoyur. Bununla yanaşı, təsirinin bütün bölgələr və sonrakı nəsillər üzrə miqyasını dəqiqləşdirmək üçün oxucu, tədris və yazışma materiallarının araşdırılması lazımdır.

Şəbüstər'də şübhəli ölüm və kitabla bağlı iddialar

Borumənd Fondu'nun məlumatına görə, Zehtabi'nin cəsədi 1 dey 1377-ci ildə, miladi təqvimlə 22 dekabr 1998-ci ildə Şəbüstər'dəki evində tapılmışdır. Fondun müsahibələrə əsaslanan materialında hadisə şübhəli ölüm və mümkün siyasi qətl çərçivəsində təqdim olunur. Kafkasyalı isə iki fərqli izahı qeyd edir: Bəzi çevrələr onun "İran Türklərinin Əski Tarixi" kitabı və Xatəmi'yə ünvanlanan müraciət səbəbilə öldürüldüyünü irəli sürür, digərləri ölümü ürək tutması ilə izah edir (Borumənd Fondu, tarixsiz; Kafkasyalı, 2016).

Kitabın Türk varlığını qədim dövrlərə bağlaması və müəllifin evində ölü tapılması onun irsinin sonrakı müzakirələrində əlaqələndirilən mövzulardır. Bu əlaqə kitabın siyasi məna daşıdığına dair baxışı göstərir, lakin ölümün səbəbini müəyyənləşdirmir. Milli düşüncə fəaliyəti, dil hüquqları tələbləri və tarix kitabı ilə bağlı qətl ehtimalı mənbələrdə mövcuddur; bunlardan hər hansı birini sübut edilmiş səbəb kimi göstərmək mümkün deyil. Ölüm şəraitinin aydınlaşdırılması ayrıca sənədli araşdırma tələb edir.

Zehtabi'nin irsini qiymətləndirərkən bu mübahisə onun elmi və maarifçi əməyini kölgədə qoymamalıdır. Ölüm haqqında iddialar onun fəaliyətinin bəzi çevrələrdə siyasi baxımdan necə qəbul olunduğunu göstərən materialdır. İrsinin məqalədə əsaslandırılan dəyəri isə dil, tarix və mədəni əlaqələr sahəsində gördüyü işlərə söykənir. Onun İran Türkləri miqyasında düşüncəsi ölüm haqqında hansı izahın doğru olmasından asılı olmadan əsərləri və fəaliyətinə dair məlumatlar üzərindən araşdırıla bilər.

Nəticə

Məhəmmədtağı Zehtabi'nin həyat yolu İran Azərbaycanı'nda müəllimlik və təhsildən mühacirətə, həbs və sürgündən Bakı'da elmi fəaliyətə, Bağdad'dakı çalışmalardan İrana qayıdışa uzanır. Bu müxtəlif mühitlərdə onun irsinin davamlı mövzuları ana dili, milli mənsubiyət və keçmişlə əlaqə olmuşdur. Dilçilik əsərləri ana dilində öyrənməni, ədəbi yaradıcılığı mənsubiyətin fərdi ifadəsini, tarix kitabı isə İran Türklərinin keçmişdə görünməsini önə çıxarmışdır.

Məqalədə nəzərdən keçirilən müəllif qiymətləndirmələri və mədəni təmaslar Zehtabi'nin düşüncəsini yalnız İran Azərbaycanı ilə məhdudlaşdırmağın yetərli olmadığını göstərir. "İran Türkləri" anlayışı, qaşqaylara ayrılan əsər və müxtəlif Türk çevrələri ilə əməkdaşlıq onun daha geniş milli düşüncə istiqamətini açıqlayır. Bu əsaslarla Zehtabi İran'da Türkçülüyün fikri inkişafında yönverici ziyalı kimi qiymətləndirilir: O, Türk kimliyini dilin öyrənilməsi, tarixi hafizə və mədəni həmrəyliklə əlaqələndirən ziyalıdır. Onun yeddi minillik keçmiş haqqında tarixi yanaşmanin elmi doğruluğu ayrıca araşdırılmalıdır, lakin İran Türklərini öz keçmişi haqqında düşünən subyekt kimi önə çıxarması irsinin mühüm xüsusiyətidir. Zehtabi'nin Azərbaycan bağlılığı bu geniş düşüncənin əsasını, İran Türklərinə müraciəti isə onun əhatəsini müəyyənləşdirir.

Qaynaqlar

Azadgər, M. (2024, 17 noyabr). *Dar hasrat-e azadi: Tab'idiyan-e nefrin-shode-ye Ferqe-ye Demokrat-e Azerbaijan* [Azadlıq həsrətində: Azərbaycan Demokrat Firqəsinin sürgünləri]. *Avaye Tab'id*. https://ufp-iran.org/16718/

Borümənd Fondu. (n.d.). *Mohammad-Taqi Zehtabi: Yek sargozasht* [Məhəmmədtağı Zehtabi: Bir həyat hekayəsi]. https://www.iranrights.org/fa/memorial/story/-9545/mohammad-taqi-zehtabi

Encyclopaedia Iranica. (1988). Azarbaijan x. Azeri Turkish literature. *Encyclopaedia Iranica*. https://www.iranicaonline.org/articles/azerbaijan-x/

Heyət, C. (n.d.). *Türk dilləri və ləhcələrinin tarixi* (II kitab). https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Cavad-Hey%C9%99t-Turk-dilleri-v%C9%99-l%C9%99hc%C9%99l%C9%99rinin-tarixi-II-kitab.pdf

Kafkasyalı, A. (2016). Muhammet Taki Zehtabî ve onun çalışmaları. *TYB Akademi, 6*(18), 65–94. https://www.tybakademi.com/kitap/akademi18.pdf

Mədətli, E. (1999). İran Türklerinin eski tarihi [Kitab təqdimatı]. *Bilge*, (21), 81–84. https://akmb.gov.tr/wp-content/uploads/2023/02/Bilge-pdf.21.pdf

Məmmədli, P. (2011). Ön söz. M. Zehtabi, *Başqa dilim, elim var mənim: Şeir toplusu* (P. Məmmədlinin tərtibi, transliterasiyası, ön sözü və izahları ilə). Elm.

Məmmədli, P. (2024). Başqa dilim, elim var mənim [2011-ci il kitabı üçün hazırlanmış materiallar əsasında yenidən işlənmiş məqalə]. *Füyuzat*. https://fuyuzat.az/basqa-dilim-elim-var-menim/

Mərdani Rəhimi, Ə. (2012). *Yüz əsərə bir baxış* [Xatirənin İsa Məcidinin saytında dərc edilmiş hissəsi]. https://isamajidi.blogfa.com/tag/حسین-صدیق

Mərdani Rəhimi, Ə. (n.d.). *Qaşqayı sözlüyünün müqəddiməsindən hissə* [2022-ci ildə Elyana Shamloo saytında yayımlanmış material]. https://shamlu.blogfa.com/post/347

Musayeva, F. (2011, 21 oktyabr). Başqa dilim, elim var mənim [Şeir toplusunun təqdimatı]. *Mədəniyyət*. https://medeniyyet.info.az/page/news/739/Basqa-dilim-elim-var-menim.html

Nəsibli, N. (2001). Azerbaycan'ın milli kimlik sorunu. *Avrasya Dosyası, 7*(1), 132–160. https://21yyte.org/assets/uploads/files/132-160%20nesib.PDF

Yilmaz, H. (2013). The Soviet Union and the construction of Azerbaijani national identity in the 1930s. *Iranian Studies, 46*(4), 511–533. https://doi.org/10.1080/00210862.2013.784521

Yaşar Ali PURALİ **0009-0001-7573-854X**

Kanada'da yayımlanan *TURUK* Akademik ve Araştırma Dergisi **ile** *Azerbaijan Post*'un Yayıncısı, Gazetecisi ve Genel Yayın Yönetmeni.

Yazı Bilgisi:

Alındığı Tarih: 12 EEkim 2026
Yayına Kabul edildiği tarih: 20 Ekim 2026
E-yayın tarihi: 2 Kasım 2026
Çıktı sayfa sayısı: 19
Kaynak sayısı: 13